AFFA

# AFFA-NIN "FUTBOLA QOŞUL" ONLAYN QEYDİYYAT SİSTEMİNDƏ FUTBOLÇU VƏ DİGƏR İŞTİRAKÇILARIN QEYDİYYAT QAYDALARI

BURAXILIŞ 2025

# Mündəricat

Tətbiq sahəsi ........ 4

Məqsədlər ........ 4

Ümumi müddəalar ........ 5

Futbolçu qeydiyyatı qaydaları və futbolçu pasportunun tərtibi ........ 7

İlkin qeydiyyat, qeydiyyatın yenilənməsi, icarə, transfer və fərqli idman növlərində qeydiyyata götürülmə qaydaları ........ 12

Klub qeydiyyatı ........ 13

İştirakçı müqaviləsi və lisenziyası haqqında ........ 14

Kütləvi futbol haqqında ........ 14

Kömək xidməti ........ 15

## Tətbiq sahəsi

- Bu qaydalar AFFA yarışlarında iştirak etmək istəyən AFFA-da qeydiyyatdan keçmiş bütün futbola aid idman növləri (futbol,futzal,çimərlik futbolu, kütləvi futbol,elektron futbol və s.) üzrə klublara tətbiq olunur.

- AFFA-nın "Futbola Qoşul" onlayn qeydiyyat sistemində qeydiyyat keçən iştirak edəcəyi yarışlardan asılı olmayaraq bütün klub, idman məktəbləri, orta və ali təhsil ocaqları, ayrı-ayrı komandalar bütövlükdə klub adlandırılır.

## Məqsədlər

AFFA-nın "Futbola Qoşul" onlayn qeydiyyat sisteminin təsis edilməsi aşağıdakı vəzifələrin yerinə yetirilməsinə yönəldilmişdir:

- Bu yeni sistem oyunçular, məşqçilər və inzibatçılar üzrə əhatəli məlumat bazası ilə əlaqəli fəaliyyət göstərir.

- AFFA-nın qeydiyyat sistemi və sistemin təqdim etdiyi statistik məlumatlar daha dəqiq məlumatların toplanılmasına və təhlilinə imkan verir.

- Bu təkmilləşdirilmiş qeydiyyat sistemindən istifadə edərək, AFFA futbolun inkişafı istiqamətində görülən işlərin monitorinqini həyata keçirə, əldə edilən irəliləyişləri qiymətləndirə və müvafiq təşviqat kampaniyalarını təşkil edə bilər.

- Məlumat bazasından istifadə edərək AFFA ayrı-ayrı yarışlarda iştirak edən oyunçuların və komandaların sayına nəzarət edə bilir.

- Qeydiyyat sisteminin onlayn aparılması yarışlara qatılan klubların özünün qeydiyyat prosesinin mükəmməlləşdirilməsinə və asanlaşdırılmasına xidmət edir.

# 1. Ümumi müddəalar

1.1 Bu əsasnamə Azərbaycan Respublikasının qanunvericiliyi, FİFA-nın oyunçuların transferi və statusu haqqında qaydaları və AFFA-nın oyunçuların transferi və statusu haqqında qaydalarına uyğun olaraq hazırlanmışdır. Əsasnamə AFFA-nın "Futbola Qoşul" - onlayn qeydiyyat sistemi (gələcəkdə FQ-OQS adlanacaq) vasitəsi ilə aparılan ilkin qeydiyyat, qeydiyyatın yenilənməsi, oyunçuların transferi və icarəsi qaydalarını əks etdirir.

1.2 FQ-OQS-də yalnız AFFA yurisdiksiyası altında yarışlara qatılan klub və fərdlər qeydiyyata alınır.

1.3 FQ-OQS-də fərdlərin qeydiyyatı klub tərəfindən aparılır və yekun olaraq AFFA tərəfindən təsdiq olunur.

1.4 Əsasnamədə istifadə olunan terminlər FİFA və AFFA qaydalarından götürülərək əks etdirilib.

1.5 Futbolçu pasportu təyin edilmiş vahid qayda ilə tərtib olunaraq, futbolçunun hər hansı futbol klubuna mənsub olduğunu və futbolçu haqqında ümumi məlumatları göstərir.

1.6 Fubolçunun peşəkar və ya həvəskar olması FİFA və AFFA qaydalarına uyğun olaraq təyin olunur. Futbolçu haqqında olan məlumatlar futbolçu pasportuna daxil edilir.

1.7 Hər bir peşəkar və həvəskar futbolçunun ümumi məlumatları və futbolçu pasportu məlumatları aşağıda göstərilən ümumi məlumat qaydalarına uyğun olaraq əks etdirilir:

Futbolçu pasportunda qeyd olunan ümumi məlumatlar:
- Karyeranın başlama tarixi
- Karyeranın bitmə tarixi
- Klubun adı
- Peşəkar və ya həvəskar futbolçu səviyyəsi haqqında məlumat
- Mənsub olduğu federasiya

Futbolçuya aid ümumi məlumatlar:
- Soyadı
- Adı
- Elektron şəkil
- Doğum tarixi
- Cinsi
- Vətəndaşlıq
- Doğulduğu ölkə
- Doğulduğu şəhər
- Şəxsiyyəti təsdiqedici sənədin nömrəsi
- Ata adı
- Ana adı

- Telefon nömrəsi
- Poçt kodu
- E-mail
- Ünvan

Futbolçu qeydiyyatı üçün tələb olunan sənədlər:
- Şəxsiyyəti təsdiq edən sənəd (yeni nəsil şəxsiyyət vəsiqəsi, istisna hal olaraq xarici pasport)
- Elektron şəkil (18 yaşa qədər hər mövsüm üçün yeni)
- Tibbi arayış (hər mövsüm üçün yeni)
- Müqavilə
- İcarə müqaviləsi
- Beynəlxalq Transfer Sertifikatı sənədi

Məşqçi və digər inzibati işçilərin qeydiyyatı üçün tələb olunan sənədlər:
- Şəxsiyyəti təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi, istisna hal olaraq xarici pasport)
- Elektron şəkil
- Məşqçilik lisenziyası*1
- Müqavilə
- Məhkumluq haqqında arayış

*1 Müvafiq məşqçilik lisenziyası yalnız **“Azərbaycan futbol klublarının lisenziyalaşdırılması prosesində iştirak edən klubların”** müvafiq məşqçiləri üçün tələb olunur.

## 2. Futbolçu qeydiyyatı qaydaları və futbolçu pasportunun tərtibi

2.1 FQ-OQS vasitəsilə futbolçuların qeydiyyatına yaş məhdudiyyəti yoxdur. İstisna hallarda qeydiyyat AFFA bayrağı altında keçirilən yarışların əsasnamələrinə uyğun aparılır.

2.2 Yalnız 12 yaşına çatmış futbolçu üçün futbolçu pasportu tərtib olunur. Futbolçu pasportu futbolçunun idman karyerasını və klub mənsubiyyətini əks etdirən əsas sənəddir.

2.3 İştirakçıların qeydiyyatı yalnız Azərbaycan dilində aparılır. Yüklənən sənədlər yalnız Azərbaycan dilində olmalıdır (xarici dildə olan sənəd azərbaycan dilinə tərcümə edilməli və notarial qaydada təsdiq olunmalıdır). Futbolçu pasportunun müddəti yoxdur.

2.4 Futbolçunun qeydiyyatı və pasport açılması müvafiq məlumatları və sənədləri qeydiyyata götürən klub tərəfindən yalnız FQ-OQS vasitəsilə yüklənməsindən sonra mümkün olur.

2.5 Bütün qeydiyyat əməliyyatları klublar tərəfindən aparılır. Qeydiyyat prosesinə nəzarət və yekun təsdiq AFFA-nın Qeydiyyat və Statistika şöbəsi tərəfindən edilir.

2.6 Qeydiyyatdan keçən hər bir şəxsə AFFA qeydiyyat nömrəsi verilir. Bu qeydiyyat nömrəsi şəxsin idman karyerası müddətində dəyişilməz olaraq qalır.

2.7 AFFA-ya FQ-OQS vasitəsilə təqdim olunan sənədlərin həqiqiliyinə görə birbaşa klub, futbolçu və futbolçunun etibarnamə ilə qanuni nümayəndəsi məsuliyyət daşıyır. Təqdim olunan sənədlərdə hər hansı həqiqətə uyğun olmayan məlumat (məs. sənəd saxtalaşdırılması) və ya mübahisəli məqamlar aşkarlanarsa, bu haqda məlumat araşdırılma üçün aidiyyəti üzrə təqdim olunacaq.

2.8 Futbolçunun pasportunda olunan dəyişikliklərə görə AFFA-nın aidiyyəti üzrə şöbəsi məsuliyyət daşıyır.

**Qeyd:** Qeydiyyatdan keçmiş oyunçunun iştirak edəcəyi yarış və oyunçu səviyyəsi yarışı keçirən müvafiq qurumun (şöbə) əsasnaməsi ilə tənzimlənir. Klub/komandalar iştirak etdikləri müvafiq yarışlar üzrə yarış və intizam qaydaları ilə tanış olmaq məsələsində tam məsuliyyət daşıyır.

I. 10-18 yaş arası Azərbaycan vətəndaşı olan, lakin xarici ölkədə anadan olmuş futbolçuların qeydiyyat proseduru

1. Futbolçunun ilkin qeydiyyatı zamanı doğulduğu ölkənin Futbol Federasiyasına yazılı sorğu məktubu göndərilir. Bu məlumatı göndərmək üçün futbolçunun şəxsiyyət vəsiqəsi təqdim edilməlidir.

2. Göndərilən sorğu məktubuna 30 gün ərzində futbolçunun doğulduğu ölkənin Futbol Federasiyası tərəfindən cavab verilmədikdə, FİFA qaydalarına əsasən futbolçu FIFA TMS – proqramına məsul şəxsin təsdiqindən sonra qeydiyyata alınır.

3. Futbolçunun doğulduğu ölkənin Futbol Federasiyasında qeydiyyatda olmadığı haqqında Qarşı Federasiyadan təsdiq məktubu alındıqda FIFA TMS-proqramına məsul şəxsin təsdiqindən sonra futbolçunun qeydiyyatına icazə verilir.

4. Əgər futbolçunun doğulduğu ölkənin Futbol Federasiyasında qeydiyyatda olması haqqında Qarşı Federasiyadan məktub alınarsa, bu halda futbolçunun təkrar qeydiyyatı üçün aşağıdakı sənədlər tələb olunur:

| Sənədin növü | Müvafiq əsaslar |
| --- | --- |
| • Orta təhsil haqqında arayış<br>• Futbol təhsili haqqında arayış | • Təhsil aldığı müəssisənin adı<br>• Müvafiq təhsil müəssisəsi tərəfindən təmin edilmiş tədris planı /dərs cədvəli<br>• Futbol təlimi/futbol dərsi cədvəli<br>• Orta təhsil/futbol təhsilinin başlanğıc tarixi/müddəti |
| • Qeydiyyatda olduğu ünvanın (mənzilin) təsdiq sənədi və himayədarlıq haqqında sənəd (yalnız oyunçunun qəyyumu oyunçunun valideynlərindən biri olmadığı halda) | • Ünvan<br>• Qəyyumun adı, şəxsiyyəti  və oyunçu ilə qohumluq dərəcəsi |
| • İş müqaviləsi (valideynlərdən biri) | • İşəgötürənin adı<br>• İşəgötürənin ünvanı , vəzifə<br>• İşçinin adı,soyadı<br>• İşin təsviri<br>• Məvacib məlumatları<br>• İşə başlama tarixi<br>• Etibarlılıq müddəti |
| • Valideyn razılığı (oyunçunu qeydiyyata götürəcək yerli klubda iştirak etməsinə valideynlərin razılığı) | • Valideynin adı,soyadı<br>• Oyunçunun adı,soyadı<br>• Hər iki valideyndən razılıq |
| • Oyunçunun doğum haqqında şəhadətnaməsi | • Oyunçunun adı,soyadı<br>• Doğum tarixi<br>• Doğum yeri<br>• Valideynlərin adı,soyadı |
| • Şəxsiyyəti  və vətəndaşlığını təsdiq edən sənəd – oyunçu/valideynləri | • Adı,soyadı<br>• Vətəndaşlıq |
| • Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi – oyunçu/valideynləri | • İcazənin verilmə tarixi<br>• Ünvan / yer |
| • İş icazəsi – oyunçu və ya valideynləri (valideynlər xarici vətəndaşlar olduqları halda) | • Ölkə<br>• Verilmə tarixi<br>• İcazə verənin adı, soyadı/Etibarlılıq müddəti |

5. Təkrar qeydiyyat üçün tələb olunan sənədlər FIFA-nın rəsmi  3 dilindən birində - ingilis, ispan və ya fransız  dilində olmalı  və mütləq notariusda təsdiq olunmuş formatda  olmalıdır. Sənədlər klub təfərindən (PDF fotmatda) toplanıb elektron poçt vasitəsilə  AFFA Qeydiyyat və Statistika şöbəsinin TMS-proqramına məsul şəxsin elektron ünvanına göndərilməlidir.

6.  Sənədlər təmin olunduqdan sonra, futbolçunun transferi məsələsi üçün FİFA-ya göndərilir və FIFA tərəfindən  yekun qərar (təsdiq və ya imtina) verilir

II. 10-18 yaş arası Azərbaycan vətəndaşlığı olmayan futbolçuların qeydiyyat proseduru
- Futbolçunun pasportu-xarici ölkə - Doğum yeri-xarici ölkə
- Futbolçunun pasportu-xarici ölkə - Doğum yeri-Azərbaycan

1. Azərbaycan vətəndaşı olmayan futbolçuların ilkin qeydiyyatı zamanı doğulduğu ölkənin futbol federasiyasına yazılı sorğu məktubu göndərilir. Bu məlumatı göndərmək üçün futbolçunun şəxsiyyət vəsiqəsi, xarici pasportu və istisna hallarda doğum haqqında şəhadətnaməsi təqdim edilməlidir.

2. Göndərilən sorğu məktubuna 30 gün ərzində futbolçunun doğulduğu ölkənin Futbol Federasiyası tərəfindən cavab verilmədikdə, FİFA qaydalarına əsasən futbolçunun qeydiyyatı ilkin qeydiyyat hesab olunur, klub tərəfindən təmin olunan sənəd toplusu (paraqraf 2,başlıq I,bənd 4) FIFA-ya göndərilir və FIFA tərəfindən yekun qərar (təsdiq və ya imtina) verilir.
Futbolçunun doğulduğu ölkənin Futbol Federasiyasında qeydiyyatda olmadığı haqqında Qarşı Federasiyadan təsdiq məktubu alındıqdan sonra TMS proqramı vasitəsilə futbolçunun ilkin qeydiyyatı üçün klub tərəfindən – paraqraf 2,başlıq I,bənd 4-dəki sənədlər toplusu təmin olunur və həmin sənədlər yekun qərar üçün FIFA-ya göndərilir. Paraqraf 2,başlıq I,bənd 4 ilkin qeydiyyat üçün klublara göndərilən ümumi sənəd toplusudur.Lakin klub tərəfindən oyunçu və valideynlərinin ölkəyə köçmə səbəbi təmin olunarsa,o zaman sənəd siyahısında qeyd olunan səbəb əsasında aşağıdakı dəyişikliklər olacaqdır:

a) Futbolçu ilk dəfə qeydiyyatdan keçir və qeydiyyatdan keçmək istədiyi ölkə ərəzisində 5 il davamlı olaraq yaşayırsa;
- Futbolçunun qeydiyyatdan keçmək istədiyi ölkə ərəzisində 5 il davamlı yaşadığını təsdiq edən hüquqi sənəd
- Futbolçunun şəxsiyyətini / vətəndaşlığını təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi və ya xarici pasport)
- Futbolçunun doğum haqqında şəhadətnaməsi
- Futbolçunun qeydiyyatdan keçmək istədiyi ölkə ərazisində yaşayış üçün icazə vəsiqəsi

b) Oyunçunun valideynləri ölkəyə futbolla əlaqəli olmayan səbəblərdən ötrü köçübsə;
- İş müqaviləsi (oyunçunun valideynləri)
- Oyunçunun doğum haqqında şəhadətnaməsi
- Şəxsiyyəti və vətəndaşlığını təsdiq edən sənəd – oyunçu
- Şəxsiyyəti və vətəndaşlığını təsdiq edən sənəd – valideynlər
- Ölkə ərazisində yaşayış üçün icazə vəsiqəsi – valideynlər (valideynlər Azərbaycan vətəndaşları olmadıqları halda)
- İş icazəsi – valideynlər (valideynlər Azərbaycan vətəndaşları olmadıqları halda)

c) Klublar tərəfindən yuxarıda qeyd olunanlardan əlavə, digər səbəblər təmin olunarsa, ona uyğun olaraq müvafiq sənədlər toplusu kluba təqdim edilə bilər.

**Qeyd 1:** Sənədlər təmin olunduqda TMS proqramına daxil edilir. FİFA ilkin qeydiyyatı təsdiq etdikdə FIFA TMS -proqramına məsul şəxsin təsdiqilə futbolçunun qeydiyyatına icazə verilir.

**Qeyd 2:** 10 yaşdan aşağı olan futbolçular üçün BTS tələb olunmur.

III. Yaşı 18-dən yuxarı olan həvəskar futbolçuların qeydiyyat proseduru

- Xarici ölkədə doğulan və yaxud xarici ölkə vətəndaşı olan 18 yaşdan yuxarı həvəskar futbolçuların ilkin qeydiyyatı zamanı futbolçunun doğulduğu və yaxud vətəndaşı olduğu ölkənin Futbol Federasiyasına yazılı sorğu məktubu göndərilir. Bu məlumatı göndərmək üçün futbolçunun şəxsiyyət vəsiqəsi, xarici pasportu və istisna hallarda doğum haqqında şəhadətnaməsi təqdim edilməlidir.

- Göndərilən sorğuya 30 gün ərzində futbolçunun doğulduğu və yaxud vətəndaşı olduğu ölkənin Futbol Federasiyası tərəfindən cavab verilmədikdə, FİFA qaydalarına əsasən futbolçu FIFA TMS proqramına məsul şəxsin təsdiqindən sonra qeydiyyata alınır.

- Göndərilən sorğuya cavab olaraq futbolçunun doğulduğu və yaxud vətəndaşı olduğu ölkənin Futbol Federasiyasında qeydiyyatda olmadığı haqqında təsdiq məlumatı alındıqda FIFA TMS proqramına məsul şəxsin təsdiqindən sonra futbolçunun qeydiyyatına icazə verilir.

- Göndərilən sorğuya cavab olaraq futbolçunun doğulduğu və yaxud vətəndaşı olduğu ölkənin Futbol Federasiyasından qeydiyyatda olması haqqında məlumat daxil olduqda həmin futbolçuya BTS - Beynəlxalq Transfer Sertifikatı (ITCBTS) alınması zəruri hala çevrilir. BTS alınması üçün futbolçunun şəxsiyyətini təsdiq edən sənəd və əvvəlki oynadığı klubun adı (məlumdursa) klub tərəfindən təmin olunmalıdır.

- Futbolçunun Beynəlxalq Transfer Sertifikatı alındıqda FIFA TMS -proqramına məsul şəxsin təsdiqindən sonra futbolçunun qeydiyyatına icazə verilir.

- Yuxarıda təqdim olunan qaydalar Futzal oyunçuları üçün də keçərlidir

IV. "Kütləvi Futbol" idmançılarının qeydiyyat proseduru

- AFFA-nın "Futbola Qoşul" onlayn qeydiyyat sistemində qeydiyyatdan keçmiş və yalnız "Kütləvi Futbol" qeydiyyatı olan idmançılar hər hansı futbol və ya futzal (çimərlik) klubu tərəfindən qeydiyyata götürüldüyü zaman yuxarıda göstərilən bütün qaydalar (10-18 yaş arası Azərbaycan vətəndaşı olan, lakin xarici ölkədə anadan olmuş futbolçuların qeydiyyat proseduru; 10-18 yaş arası Azərbaycan vətəndaşlığı olmayan futbolçuların qeydiyyat proseduru; Yaşı 18-dən yuxarı olan həvəskar futbolçuların qeydiyyat proseduru; Peşəkar futbolçunun qeydiyyat proseduru) qeydiyyata götürülən oyunçuya şamil olunacaq.

# 3. İlkin qeydiyyat, qeydiyyatın yenilənməsi, icarə, transfer və fərqli idman növlərində qeydiyyata götürülmə qaydaları

İlkin qeydiyyat

3.1 İlkin qeydiyyat zamanı iştirakçını (futbolçu, məşqçi, inzibati işçi) qeydiyyata götürən klub ilk öncə axtarış edir. Sistemdə olmadığına əmin olduqdan sonra onu yeni iştirakçı kimi qeydiyyatdan keçirir.

Qeydiyyatın yenilənməsi

3.2 Əvvəlki illərdə klubun qeydiyyatında olan və digər klubun qeydiyyatına keçməyən iştirakçının (futbolçu, məşqçi, inzibati işçi) qeydiyyatı yenilənməlidir.

Fərqli idman növlərində qeydiyyata götürülmə qaydaları

3.3 İştirakçı (futbolçu, məşqçi, inzibati işçi) mövsüm ərzində eyni anda bir idman növündə yalnız bir klubun qeydiyyatında ola bilər.

3.4 Oyunçu mövsüm ərzində eyni anda fərqli idman növlərində (futbol, futzal, kütləvi futbol) fərqli klubların (idman məktəblərinin) qeydiyyatında olar bilər.

3.5 Oyunçuların transferi və ya icarəsi yalnız eyni idman növündə (futboldan futbola, futzaldan futzala) baş verə bilər.

3.6 Digər idman növündə olan iştirakçını (futbolçu, məşqçi, inzibati işçi) qeydiyyata götürmək istəyən klub iştirakçı üçün yalnız "Məlumat sorğusu" göndərməlidir.

Oyunçuların icarə qaydaları

3.7 Bütün icarə prosedurları FİFA qaydalarına əsasən aparılır. Azərbaycan Respublikasının qanunları və öz nizamnaməsi əsasında fəaliyyət göstərən "A klubu"-icarəyə götürən, "B klubu"-icarəyə verən və futbolçu (18 yaşa qədər olduqda qanuni nümayəndəsi) icarə barəsində müqavilə imzalamalıdır.

3.8 Yalnız oyunçu ilə müqaviləsi olan klub oyunçunu icarəyə vermə hüququna malikdir (müqavilə mütləq sistemə yüklənmiş olmalıdır).

3.9 Aktiv olmayan (giriş hüququndan istifadə etməyən) klubdan oyunçunu icarəyə götürən klub icarə razılığını registration@affa.az mailinə göndərməlidir. Bu razılığa əsasən AFFA-nın Qeydiyyat və Statistika şöbəsi oyunçunun icarə sorğusunu aktiv olmayan (giriş hüququndan istifadə etməyən) klubun əvəzinə təsdiq edəcək.

3.10 FQ-OQS vasitəsilə iki klub arasında icarə sorğusu təsdiqləndikdən sonra oyunçunu icarəyə götürən klub müvafiq sənədləri yekun təsdiq üçün sistemə yükləməlidir.

3.11 İcarənin müddəti bitməmişdən əvvəl imtina etmək üçün İcarəyə götürən klub rəsmi olaraq registration@affa.az elektron ünvanımıza imtina barədə məktub yazmalıdır. Bundan sonra icarə AFFA tərəfindən ləğv olunur.

3.12 Oyunçunu icarəyə verən klub icarə müddətini özü izləməlidir. Bu müddətdə icarədə olan oyunçunu digər üçüncü kluba transfer və ya icarəyə verə bilməz. Əks halda məsuliyyət icarəyə verən kluba aiddir.

Oyunçuların transfer qaydaları

3.13 Aktiv olmayan (giriş hüququndan istifadə etməyən) klubdan oyunçunu transfer edən klub transfer razılığını registration@affa.az mailinə göndərməlidir. Bu razılığa əsasən AFFA-nın Qeydiyyat və Statistika şöbəsi oyunçunun transfer sorğusunu aktiv olmayan (giriş hüququndan istifadə etməyən) klubun əvəzinə təsdiq edəcək. Sorğu təsdiq olunduqdan sonra transfer edən klub transfer razılığını oyunçunun sənədlər bölümündə olan xüsusi yerə yükləməlidir.

3.14 FQ-OQS vasitəsilə iki klub arasında transfer sorğusu təsdiqləndikdən sonra futbolçunu transfer edən klub müvafiq sənədləri yekun təsdiq üçün ən gec 3 gün ərzində sistemə yükləməlidir. Əks halda transferdən imtina hüququ AFFA-nın Qeydiyyat və Statistika şöbəsi tərəfindən icra oluna bilər.

**Qeyd:** Məşqçi və inzibati heyət icarə və ya transfer olunmur, klubdan kluba keçid yalnız "Məlumat sorğusu" əsasında baş tuta bilər.

# 4. Klub qeydiyyatı

4.1 İlk olaraq (köhnə klublar – AFFA bazasında artıq mövcud olanlar) klublar yarışlara qatılmaq üçün oyunların təşkili şöbələrinə müraciət etməlidir. Yarışların təşkili şöbələri kluba yarışlara qatılmaq hüququ tanıdıqdan sonra AFFA-nın FQ-OQS-nə məsul Qeydiyyat və Statistika şöbəsinə registration@affa.az maili vasitəsi ilə bu klublar barəsində məlumat verməlidir;

4.2 Yeni (AFFA bazasında mövcud olmayanlar) klublar yarışlara qatılmaq üçün oyunların təşkili şöbələrinə müraciət etməlidir. Yarışların təşkili şöbələri kluba yarışlara qatılmaq hüququ tanıdıqdan sonra klublara təqdim olunan "Klub anketi"ni doldurmaq üçün təqdim etməlidirlər. Son olaraq oyunların təşkili şöbələri doldurulmuş anketlə birgə Qeydiyyat və Statistika şöbəsinin registration@affa.az mailinə bu klublar barəsində məlumat göndərməlidir;

4.3 "Futbola Qoşul" platformasında hər bir özünün qeydiyyatını aparmaq istəyən klub (yeni və ya köhnə) Qeydiyyatdan keç yerindən istifadə edərək qeydiyyatdan keçməlidir. Qeydiyyatdan keçdikdən sonra müvafiq klub və klub üçün təqdim olunan rolu (rolları) seçib AFFA-ya təqdim etməlidir.

4.4 Müvafiq klub və rol (rollar) seçildikdən sonra Klub göstərilən email registration@affa.az ünvanına məlumat verməlidir.

4.5 Yalnız Qeydiyyat və Statistika şöbəsi tərəfindən rolun (rolların) təsdiqindən sonra klub öz səhifəsinə daxil olaraq hər hansı qeydiyyat əməliyyatı apara bilər.

# 5. İştirakçı müqaviləsi və lisenziyası haqqında

- AFFA bayrağı altında keçirilən yarışlara qatılan hər bir klub mütləq olaraq hər mövsüm FQ-OQS-də qeydiyyatdan keçib, iştirakçı lisenziya aldıqdan sonra yarışlara qatılmalıdır.

- İştirakçı lisenziyaları yalnız verildiyi mövsüm üzrə etibarlıdır. Mövsüm ərzində yarışlarda iştirak edib etməməsindən asılı olmayaraq hər hansı səbəbdən fəaliyyətini dayandıran klub/komandanın heyətindəki oyunçular klubla müqaviləsi olmadığı təqdirdə azad statuslu hesab olunur.

- Oyunçuların keçid prosesi müvafiq yarışların əsasnaməsinə uyğun olaraq edilməlidir.

- Növbəti mövsümdə müqaviləsi olmayan və ya müqaviləsinin müddəti bitən hər bir oyunçu azad hesab olunur. Transfer sorğusu göndərilən klub sorğunu təsdiq etmədiyi təqdirdə transfer sorğusu AFFA tərəfindən təsdiq ediləcək.

- Müqavilə müddəti bitməyən oyunçunun hüquqları qeydiyyatında olduğu kluba məxsusdur.

- Klub prosesin başlama vaxtından 72 saat ərzində transfer, icarə prosesini tamamlamadıqda, digər klubun sorğusu əsasında AFFA natamam qalmış prosesi ləğv etmə hüququna malikdir. Yeni sorğu iddiaçısı klub oyunçu ilə olan müqaviləsini AFFA-ya təqdim etməlidir.

# 6. Kütləvi futbol haqqında

- AFFA bayrağı altında keçirilən Kütləvilik yarışları mütləq olaraq FQ-OQS vasitəsilə qeydiyyatdan keçməlidir. Qeydiyyat zamanı iştirakçılar üçün tələb olunan elektron sənədlər:

  › Şəxsiyyəti təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi, istisna hal olaraq xarici pasport)
  › Elektron şəkil

# 7. Kömək xidməti

- “Futbola Qoşul” onlayn qeydiyyat sisteminə http://www.affa.az saytında keçid linki vasitəsilə daxil ola bilərsiniz.

- “Futbola Qoşul” onlayn qeydiyyat sistemindən istifadə üçün təlim videosunun linkini sizə təqdim edirik: https://www.youtube.com/watch?v=JSST4pnwNw8

- Proqramda yaranan çətinlik zamanı ekranın yuxarı sol hissəsində olan Kömək sözünə daxil olmaqla proqramdan istifadə təlimatları ilə tanış ola bilərsiniz. Hər hansı çətinliyiniz sualınız yaranarsa, aşağıda göstərilən e-mail və ya qeyd olunan telefon vasitəsilə nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

**E-mail: registration@affa.az**

**Telefon: +99412 404 27 66**

BİZ **BİRLİKDƏ** GÜCLÜYÜK!

Azərbaycan, Bakı AZ 1025,
8 Noyabr prospekti, 163
Tel: +99412 404 2777
Faks: +99412 404 2772
info@affa.az
www.affa.az